“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.

Heydər ƏLİYEV



AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİ

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 iyul 2014-cü il № 55 (1872) Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓ İyulun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin Suraxanı Günəş Elektrik Stansiyasının açılışında iştirak edib.***

***Prezident İlham Əliyevə Suraxanı Günəş Elektrik Stansiyasının göstəriciləri barədə məlumat verildi.***

***Bildirildi ki, yaradılmasında əsasən yerli xammal və avadanlıqdan istifadə olunan stansiyanın layihə gücü 2800 kilovatdır. Stansiyada illik elektrik enerjisi istehsalı 4 milyon kilovatdır. Stansiya layihə gücü ilə tam işləyəndə il ərzində 1,5 milyon kubmetr qaza qənaət olunacaq.***

***Görülən işlərlə tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və göstərişlərini verdi.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Riçard Morninqstarı diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.***

***Görüşdə Azərbaycan Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, enerji sahəsində uzun illər həyata keçirilən əməkdaşlığın önəmi qeyd olundu, əlaqələrimizin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.***

* * *

***✓ İyulun 17-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.***

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.***

***Dövlətimizin başçısı ölkəmizin daim milli və dini dəyərlərə sadiqlik nümayiş etdirdiyini dedi. Azərbaycanda dinlərarası dialoqun nümunəvi xarakter daşıdığını və bütün millətlərin bir ailə kimi yaşadıqlarını qeyd etdi. Ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətlərini vurğulayan Prezident İlham Əliyev bəşəri dəyərlərə hörmətlə yanaşılan, beynəlxalq birliyə uğurla inteqrasiya edən Azərbaycanın İslam həmrəyliyinə də töhfələrini əsirgəmədiyini dedi.***

* * *

***✓ İyulun 18-də Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Bakının Türkan qəsəbəsindəki bazasında yeni gəmi inşası zavodu istifadəyə verilib.***

***Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak edib.***

**AzərTAc-ın materialları əsasında**

# Azərbaycan hər an münaqişəni həll etmək əzmindədir

***Azərbaycan xalqını narahat edən və ölkəmizin hərtərəfli tərəqqisinə ciddi maneə yaradan əsas amil Qarabağın Ermənistan silahlı birləşmələri tərəfindən zəbt edilməsidir. Təbii ki, işğaldakı torpaqlarımızın azad edilməsi dövlət rəhbərliyi üçün ən ümdə vəzifə olaraq qalmaqdadır. Bu səbəbdən ordu quruculuğu ölkəmizdə daim diqqət mərkəzində dayanan prioritet sahələrdəndir.***



Xalqımız zaman-zaman ülvi və müqəddəs arzu kimi qəlbində gəzdirdiyi müstəqillik istəyinə keçmiş Sovetlər Birliyinin tarix səhnəsindən silinməsindən sonra çatdı. Əlbəttə, bundan böyük xoşbəxtlik ola bilməzdi. Azərbaycanı dünyanın siyasət okeanında sərbəst üzməyə başlayan gəmiyə bənzətmək olardı. Ancaq dövlət quruculuğunun və müstəqilliyin yolu heç də hamar və rahat deyilmiş.

Azərbaycan dövlətçiliyinin mövcudluğu və müstəqil inkişafına qarşı ən böyük maneə, məhz yuxarıda qeyd etdiyimiz kimi, qonşu Ermənistanın ərazi iddiaları və Dağlıq Qarabağı ələ keçirmək niyyəti oldu. Xarici qüvvələrin və erməni diasporunun gücünə arxalanan İrəvan bir-birinin ardınca yeni dönəmdə tarixi sınaqlara hazır olmayan Bakını çətin faktlar qarşısında qoydu.

1993-cü ildə ölkəni dərin iqtisadi, siyasi böhrandan xilas etmək üçün ümummilli lider Heydər Əliyev Naxçıvandan Bakıya dəvət edildi və yalnız bundan sonra respublikada vəziyyət dəyişməyə başladı. Hər şeydən öncə sabitliyə nail olmaq naminə cəbhədə atəşkəs üçün razılıq əldə edildi. Sonra həyatımızın bütün sahələrini əhatə etmiş böhran aradan qaldırıldı, Silahlı Qüvvələrdə intizamsızlığın, başıpozuqluğun qarşısı alındı, elmi əsaslarla və vahid komandanlıq prinsipi ilə idarə edilən nizami ordu quruculuğu prosesinə başlanıldı.

Təbii ki, ölkənin dirçəlməsi üçün iqtisadiyyat böyük önəm kəsb edir. Ona görə də bir sıra xarici və daxili maneələri dəf edən ölkə rəhbərliyi bir il sonra karbohidrogen ehtiyatlarının istehsal və ixracını nəzərdə tutan məşhur "Əsrin müqaviləsi"nin imzalanmasına nail oldu. Bununla da xarici investisiyanın ölkəmizə axını və iqtisadiyyatımızın dirçəlməsi üçün möhkəm zəmin yaradıldı.

Beləliklə, ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə siyasi sabitlik, iqtisadi inkişaf üçün möhkəm zəmin yaradıldı. Məhz bundan sonra Azərbaycanın dinamik inkişafı gerçəkliyə çevrildi.

Beynəlxalq reallıqları və geosiyasi prosesləri nəzərə almadan bu gün münaqişənin həllinə nail olmaq asan deyil. Bu baxımdan ölkə rəhbərliyi problemin çözülməsinə istiqamətlənmiş çoxşaxəli strategiya müəyyənləşdirir. Ölkənin dinamik iqtisadi inkişafı nəticəsində ordu quruculuğunu yüksəltmək və beynəlxalq səhnədə Azərbaycanın haqlı mövqeyinə siyasi dəstək qazanmaq Ermənistanın işğalçılıq siyasətini ifşa etmək bu strategiyanın tərkib hissəsidir.

2005-ci ildə Avropa Şurasının Parlament Assambleyası Dağlıq Qarabağ münaqişəsinə dair 1416 saylı qətnamə qəbul edərək Ermənistanın Azərbaycan ərazilərini işğal etdiyini rəsmən tanıdı. AŞ PA həmin sənəddə Azərbaycanın ərazi bütövlüyünə birmənalı dəstək ifadə etdi. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və Ermənistanın Azərbaycan ərazilərini dərhal işğaldan azad etməsini tələb edən dörd qətnaməsinin hələ də icra olunmamasını xatırlatdı.

Ermənistan daha bir sarsıdıcı zərbəni 2013-cü ilin oktyabrında aldı. Avropa Parlamentinin qəbul etdiyi qətnamədə Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, işğal edilmiş ərazilərin Ermənistan silahlı qüvvələri tərəfindən tamamilə boşaldılması, Dağlıq Qarabağın azərbaycanlı icmasının öz tarixi torpaqlarına qayıtması birmənalı şəkildə ifadə olundu. Diplomatiyamızın tarixi uğuru kimi dəyərləndirilən bu sənəd Ermənistanda ciddi narahatlıq və təlaş doğurdu.

Təbii ki, bütün bunlar xalqımızın haqlı mövqeyinin möhkəmlənməsindən xəbər verir, bizi addım-addım münaqişənin həllinə yaxınlaşdırır.

Bu gün beynəlxalq siyasətin nüfuzlu subyektlərindən olan və Cənubi Qafqazın qüdrətli dövləti kimi şöhrət qazanmış ölkəmiz Ermənistana məhz işğalçı mövqeyinə görə qarşı təzyiqlərini artırmaqdadır və qonşu ölkə faktiki olaraq blokada şəraitindədir. Bu, Dağlıq Qarabağ probleminin ərazi bütövlüyü çərçivəsində həllinə nail olmaq məqsədilə ölkəmizin apardığı siyasi xəttin istiqamətlərindəndir.

Təbii ki, işğal edilmiş torpaqların düşmən tapdağından azad edilməsi üçün ilk növbədə ...bu vəzifəni çiyinlərinə götürməyə qadir Silahlı Qüvvələrin olması zəruridir. Qarabağ o zaman azad sayıla bilər ki, oraya Azərbaycan əsgəri ayaq bassın! Ona görə də ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji məsələlərdəndir.

Məlum olduğu kimi, iyunun 26-da Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimləri keçirildi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev də bu təlimləri yaxından izlədi. Ali Baş Komandan hərbçilər qarşısında çıxış edərkən vurğuladı: "Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Bu göstəriciyə görə bizim ordumuz dünyada ən güclü ordular sırasındadır. Hərbi xərclərin artırılması və büdcə xərclərində birinci yeri tutması bizim dövlət siyasətimizin təzahürüdür. Bu, bizim prioritetimizdir və bundan sonra da hərbi xərcləri artıracağıq. Son 10 il ərzində hərbi xərclərimiz 20 dəfədən çox artmışdır və bizdə orduya, Silahlı Qüvvələrə ayrılmış xərclər Ermənistanın bütün dövlət büdcəsindən təxminən 2 dəfə çoxdur. Ən müasir silah-sursat alınır və bu gün bu silahların, texnikanın bir hissəsi burada nümayiş etdirilmişdir.

Ordumuzun döyüş qabiliyyəti artır, güclənir. Bu, çox sevindirici haldır. Bu gün bizim ordumuz istənilən vəzifəni icra edə bilər və bugünkü təlimlər bunu bir daha nümayiş etdirmişdir".

Ordumuzun daha da gücləndirilməsi və döyüş potensialını artırması üçün ayrılan vəsait hesabına hərbi hissələrimizdə böyük dəyişikliklər baş verir. Bu dəyişikliklər təkcə ordunun döyüş texnikası nı, avtomobil parkının yenilənməsini və günün tələblərinə cavab verən müasir silah və texnikanın alınmasını əhatə etmir. Hazırda orduda məişət problemlərinin həlli üçün dövlət xeyli vəsait ayırır və bu vəsaitlə hərbi hissələrimizin bütövlükdə infrastrukturunun təzələnməsi istiqamətində iş aparılır, şəxsi heyətin döyüş hazırlığını artırması üçün imkanlar genişləndirilir. Qoşunlarımızın son zamanlar döyüş hazırlığı sahəsində həyata keçirdiyi tədbirlər şəxsi heyətin peşəkarlığını daha da yüksəldir.

Yenə Prezident İlham Əliyevin çıxışlarının birində söylədiyi fikrə istinad etmək istəyirəm. Güclü ordunun danışıqlarda bizim mövqeyimizi böyük dərəcədə gücləndirdiyini söyləyən dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həlli məsələsinə dair optimist mövqeyini belə ifadə edib: "Bu məsələni biz həll edəcəyik və Azərbaycan bayrağını Xankəndidə qaldıracağıq".

**"Azərbaycan Ordusu"**

# Cənubi Qafqazda uzadılmış münaqişələr regionda sülh və təhlükəsizliyə başlıca təhdiddir

***Niderlandın Klingendal Beynəlxalq Əlaqələr İnstitutunun təşkil etdiyi Cənubi Qafqaz regionundan olan diplomatlar üçün treninq proqramının iştirakçıları üçün iyulun 15-də Azərbaycan Respublikasının Niderland Krallığındakı səfirliyində "dəyirmi masa" keçirilmişdir.***

Tədbirdə Azərbaycandan və Gürcüstandan olan gənc diplomatlar, Klingendal Beynəlxalq Əlaqələr İnstitutunun professorları, bu ölkədə fəaliyyət göstərən aparıcı diaspor təşkilatların, eləcə də Benilüks Azərbaycanlıları Konqresinin üzvləri, Niderland Krallığında yaşayan gənc azərbaycanlı mütəxəssislər və səfirliyin əməkdaşları iştirak etmişlər.

Səfirliyin müşaviri Aliyə Ağazadə tədbirdə Azərbaycanın xarici siyasətinin uğurlarından danışmışdır. O, iyulun 7-də Xarici İşlər Nazirliyində keçirilmiş Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin beşinci müşavirəsinin əsas məqamlarını diqqətə çatdırmışdır. Müşavirədə Prezident İlham Əliyevin çıxışı əsasında diplomatlarımız qarşısında qoyulan məqsədlər barədə iştirakçıları məlumatlandırmış, Azərbaycan diplomatiyasının prinsipial və müstəqil olması, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayının artması, Azərbaycanın müsbət beynəlxalq imici və dünyada özünü etibarlı dost və tərəfdaş kimi təsdiq etməsi, uğurlu enerji siyasəti və bu xüsusda digər vacib məqamlara toxunmuşdur. Bundan əlavə, ölkənin daxili, xarici, iqtisadi, sosial inkişafı, ordu quruculuğu sahəsində düşünülmüş konseptual yanaşmaya söykənən siyasətinin uğurlarını xüsusi vurğulamışdır.

Tədbir iştirakçılarına Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlar, regionların inkişafı, əsaslı quruculuq işləri, həmçinin ölkədə həyata keçirilən gənclər siyasəti və bu sahədə reallaşdırılan proqramlar haqqında ətraflı məlumat verilmişdir.

Daha sonra Cənubi Qafqaz regionunda təhlükəsizlik məsələləri, regiondakı münaqişələr, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və hazırda problemin həlli istiqamətində aparılan işlər "dəyirmi masa" iştirakçılarının diqqətinə çatdırılmışdır. Qeyd edilmişdir ki, Cənubi Qafqazda uzadılmış münaqişələr regionda sülh və təhlükəsizliyə başlıca təhdiddir.

İştirakçılar sözügedən münaqişələrin beynəlxalq hüququn prinsipləri - suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinin rəhbər tutularaq həllinin vacibliyi vurğulanmışlar.

Maraqlı diskussiya şəraitində keçmiş "dəyirmi masa" iştirakçılarının çoxsaylı sualları cavablandırılmış, qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

**AzərTAc-ın materialları əsasında**

# Müdafiə naziri ABŞ-ın Oklahoma ştatı milli qvardiyasının komandanını qəbul edib

***İyulun 16-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Oklahoma ştatı milli qvardiyasının komandanı general-mayor Mayls Dirinqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***





Müdafiə naziri qonaqları salamlayaraq bölgədəki vəziyyət, Ermənistanın işğalçılıq siyasətinin davam etməsi, son zamanlar cəbhə bölgəsində baş verən atəşkəs rejiminin pozulması hallarının artması və bu təxribatların erməni silahlı bölmələri tərəfindən törədilməsi barədə onlara ətraflı məlumat verib.

Müdafiə naziri əməkdaşlığın müxtəlif istiqamətləri üzrə iki ölkə arasında əldə edilmiş müsbət nəticələrdən, Oklahoma ştatının milli qvardiyası ilə Azərbaycan Silahlı Qüvvələri arasında qarşılıqlı əlaqələrin genişlənməsindən məmnun olduğunu, bu əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Qonaq Silahlı Qüvvələrimizin Əfqanıstandakı Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə verdiyi töhfəyə görə minnətdarlığını bildirib, tərəflər arasında uzun müddət davam edən səmərəli hərbi əməkdaşlığı təqdirəlayiq nümunə kimi diqqətə çatdırıb və onun genişləndirilməsinin tərəfdarı olduğunu xüsusi vurğulayıb.

Daha sonra ikitərəfli əməkdaşlıqla bağlı digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Görüşdə ABŞ-ın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Riçard Morninqstar iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyində kollegiya iclası keçirilib





***İyulun 18-də Müdafiə Nazirliyində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin rəhbər heyətilə 2014-cü ilin qış tədris dövrünün yekunlarına həsr olunmuş kollegiya iclası keçirilib.***

Toplantıda Müdafiə nazirinin müavinləri, Silahlı Qüvvələrin növləri və qoşun qismləri komandanları, Müdafiə Nazirliyinin baş idarə, idarə və müstəqil xidmət rəisləri, birlik komandirləri, qərargah rəisləri və digər məsul zabitlər iştirak ediblər.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən orduda aparılan islahatlar, müdafiənin ön xəttinin möhkəmləndirilməsi, hərbi hissələrin müasir zirehli texnikalarla komplektləşdirilməsi, onların döyüşə hazırlıq vəziyyəti, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı, nizam-intizamın gücləndirilməsi, sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması sahəsində görülən işlər haqqında geniş məruzə ilə çıxış edib.

Kollegiya iclasında hesabat dövründə istiqamətlər üzrə görülən fəaliyyətlərlə bağlı vəzifəli şəxslərin məruzələri dinlənilib və müvafiq tapşırıqlar verilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin Müdafiə Məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rəhman Quliyev iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Ordu və mətbuat əlaqələri inkişaf etdirilməlidir"

## Müdafiə Nazirliyi və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə tədbir keçirilib

***Hər bir ölkədə informasiya azadlığının təmin edilməsi hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən biridir. Təqdirəlayiq haldır ki, hazırkı dövrdə Azərbaycanın dövlət rəhbərliyi azad medianın qurulmasına, cəmiyyət-mətbuat əlaqələrinin genişləndirilməsinə ciddi önəm verir. Ölkəmizin hazırkı müharibə şəraiti isə ordu və media əlaqələrinin inkişaf etdirilməsini günümüzün ən aktual mövzusuna çevirib.***







İyulun 18-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyi ilə Mətbuat Şurasının birgə təşkilatçılığı ilə ölkənin aparıcı media nümayəndələrinin görüşü keçirilib.

Milli Mətbuat Günü ərəfəsində keçirilən tədbiri giriş sözü ilə açan Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev öncə tədbir iştirakçılarını salamlayıb və media nümayəndələrini qarşıdan gələn peşə bayaramı münasibətilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından təbrik edib.

Çıxışına davam edən nazir müavini son vaxtlar ordu rəhbərliyi tərəfindən Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin gücləndirilməsi, hərbi hissə və bölmələrin maddi-texniki təminatının yüksəldilməsi, həmçinin şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan geniş islahatlardan söhbət açıb. O qeyd edib ki, orduda aparılan ştat-struktur dəyişiklikləri yalnız ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və hərbi bölmələrin daha da təkmilləşdirilməsi məqsədilə həyata keçirilir.

"İstər 26 iyun - Silahlı Qüvvələr Günündə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə, istərsə də sonrakı günlərdə Müdafiə nazirinin iştirakı ilə müdafiənin ön xəttində keçirilən genişmiqyaslı hərbi təlimlər Azərbaycan Ordusunun hərbi qüdrətini bir daha nümayiş etdirdi.

Bu gün cəsarətlə demək lazımdır ki, ordumuz müasir hərbi texnika və silah-sursatla təmin olunub və bu istiqamətdə ardıcıl işlər görülməkdədir. Orduda artıq əvvəlki dövrlə müqayisədə əhəmiyyətli yeniliklər baş verib. Bu gün bir çox hərbi hissə və bölmələrdə təsərrüfat-məişət işlərinə peşəkar mülki işçilər cəlb edilir.

Biz çalışırıq ki, əsgərlərimiz ancaq döyüş vəzifələri ilə məşğul olsunlar. Şəxsi heyətin sırf döyüş hazırlığı ilə bağlı tapşırıqlara cəlb edilməsini təmin etmək üçün artıq minlərlə mülki peşəkar şəxs bölgələrdə yerləşən hərbi hissələrdə işə qəbul edilib.

Altı ayda çoxlu sayda əsgəri xidmətini başa vurmuş mülki vətəndaş öz arzuları ilə yenidən müddətdən artıq həqiqi hərbi xidmətə çağırılıb. Belə peşəkarların hərbi hissələrdə müvafiq tarşırıqları icra etmələri nəticə etibarilə xidməti zərurətlə bağlı bir çox işlərin keyfiyyətli görülməsinə zəmin yaradıb", - deyə nazir müavini bildirib.

Hazırkı dövrdə hərbi təhsilin keyfiyyətcə daha da təkmilləşdirilməsi üçün görülən işlərdən danışan Müdafiə Nazirliyinin rəsmisi bu sahədə ardıcıl dövlət siyasətinin həyata keçirildiyini və Azərbaycanın inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübəsindən bəhrələndiyini qeyd edib.

Kütləvi informasiya qurumları ilə əlaqələrin inkişaf etdirilməsini diqqətə çatdıran general-leytenant K.Vəliyev ordu quruculuğu məsələlərində obyektivliyin və şəffaflığın təmin edilməsi baxımından bu əlaqələrin vacibliyini vurğulayıb. O, mətbuat nümayəndələrini bu sahədə əlverişli əməkdaşlıq yaratmağa səsləyib.

Görüş iştirakçılarının suallarını cavablandıran Müdafiə Nazirliyinin idarə rəisi, ədliyyə polkovniki Rauf Kişiyev son zamanlar orduda sosial ədalətin qorunması və korrupsiya hallarına qarşı mübarizə işindən, həmçinin qohumbazlıq və yerliçilik kimi neqativ hallara son qoyulması üçün görülən qətiyyətli tədbirlərdən söhbət açıb. "Təəssüf edirəm ki, bəzi media nümayəndələri dəqiq olmayan informasiyaları yaymaqla məşğuldurlar. Belə hallar bəzən qərəzli ictimai rəyin yaranmasına gətirib çıxarır. Ümumiyyətlə, ordu mövzusunda dəqiq informasiyanın təmin edilməsi üçün daha əlverişli çıxış yolları axtarılıb tapılmalıdır".

Görüşdə iştirak edən Müdafiə Nazirliyinin idarə rəisləri - polkovnik Rüfət Əmirov, polkovnik Hicran Rüstəmzadə və Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı media ilə əlaqələrin qurulması məsələləri barədə fikirlərini bölüşüb və qonaqları maraqlandıran bəzi suallara aydınlıq gətiriblər.

Sonra Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov dövlər qurumlarının rəhbər şəxsləri ilə kütləvi informasiya vasitələri nümayəndələrinin görüşlərinin təşkilinin vacibliyini qeyd edərək, onun söz və ifadə azadlığının inkişafına, informasiyanın əldə edilməsində problemlərin aradan qaldırılmasına, media ilə dövlət qurumları arasında səmərəli əməkdaşlığın möhkəmləndirilməsinə dəstək verəcəyinə əmin olduğunu vurğulayıb.

Tanınmış media nümayəndələri Vüqar Səfərli, Müşfiq Ələsgərli, Aydın Quliyev, Rəşad Məcid, Akif Aşırlı, Elçin Mirzəbəyli, Natiq Məmmədli, Yunus Oğuz, Aynur Quliyeva, Eynulla Fətullayev, Elbrus Ərud, Seymur Səfərli və başqaları çıxış edərək Milli Mətbuat Günü ərəfəsində belə bir görüşün təşkil edilməsinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

Ölkənin əsas mətbuat qurumlarının nümayəndələrinə qarşıdan gələn peşə bayramı münasibətilə hədiyyələr təqdim edən Müdafiə nazirinin müavini general-leytenant K.Vəliyev də öz növbəsində dəyərli görüşə görə nazirliyin rəhbərliyi adından tədbir iştirakçılarına minnətdarlığını bildirib.

Sonra tədbir çay süfrəsi ətrafında davam edib.

**Mayor
Arif PƏNAHOV,
"Azərbaycan Ordusu"**

# Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də müasir mütəşəkkil ordunun yaranmasıdır



***Müdafiə Nazirliyi və Füzuli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Horadiz şəhərində xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 45-ci ildönümü münasibətilə yerli əhali və ordu nümayəndələrinin iştirakı ilə "Heydər Əliyev ideyalarına sadiqlik" devizi altında kütləvi mərasim keçirilib.***

AzərTAc xəbər verir ki, Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani tədbiri açaraq ulu öndərin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlişi ilə respublikamızda yeni eranın başlandığını, ölkəmizin intibah dövrünə qədəm qoyduğunu deyib. Məhz bugünkü güclü və qüdrətli Silahlı Qüvvələrimizin yaranmasının təməlinin də həmin dövrdə qoyulduğunu qeyd edən polkovnik onu da bildirib ki, 70-ci illərin əvvəllərində ümummilli lider Heydər Əliyev Azərbaycanın gələcəkdə müstəqilliyə qovuşacağını əvvəlcədən görərək müstəqilliyin təminatçısı olan Silahlı Qüvvələrin zabit korpusunun yaranması qayğısına da qalıb və indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsasını qoyub. Dahi rəhbər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin qurucusu olmaqla yanaşı, həm də bugünkü Azərbaycan Silahlı Qüvvələrinin baş memarıdır. Prezident, Ali Baş Komandan İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də müasir mütəşəkkil ordunun yaranmasıdır.

Polkovnik A.Qurbani daha sonra deyib ki, hazırda ordu quruculuğu məsələləri dövlətimizin başçısının fəaliyyətində prioritetdir və bu iş uğurla davam etdirilir.



Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev də 1969-cu ildən başlanan tarixi missiyanın ölkəmizin, xalqımızın və millətimizin həyatında və taleyində mühüm rol oynadığını bildirib. O, böyük qürur hissi ilə qeyd edib ki, Azərbaycan Ordusu məhz bu bölgədə, ön səngərdə ilk dəfə olaraq ümummilli lider Heydər Əliyevin timsalında öz Ali Baş Komandanını görmüş, o dahi şəxsiyyətdən, qətiyyətli sərkərdədən xeyir-dua alaraq torpaqların işğaldan azad olunması uğrunda müqəddəs döyüşlərə atılıb. Bu gün yaşıllıqlara qərq olmuş və gündən-günə çiçəklənən Horadiz böyük xilaskarın sayəsində düşmən tapdağından azad edilib və xarabalıqlar üzərində müasir şəhər salınıb. Bütün xalqımız kimi füzulilər də dahi rəhbər Heydər Əliyevin ideyalarına sadiqdirlər və hər an Ali Baş Komandanın əmrlərinə hazırdırlar.

Milli Məclis sədrinin müavini Bahar Muradova da ulu öndərimizin nəsillərə nümunəvi həyatından, Vətən qarşısında misilsiz xidmətlərindən, ordu ilə xalqın monolit birliyindən söhbət açıb və Azərbaycan Silahlı Qüvvələrində son vaxtlarda aparılan islahatların Heydər Əliyev ideyalarına sadiqliyin bariz nümunəsi olduğunu bildirib.

Tədbirin sonunda Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblı geniş konsert proqramı ilə çıxış edib.

# Xəbərlər: hadisələr, faktlar

## Rəsmi Bakıdan səfir Morninqstara cavab



Prezident Adminstrasiyası rəhbərinin müavini Novruz Məmmədov ABŞ-ın ölkəmizdəki səfiri Riçard Morninqstarın Ermənistanın işğal etdiyi yeddi rayonun qaytarılması ilə bağlı təklifinə prinsip etibarilə konstruktiv yanaşdıqlarını deyib.

"Əgər bir mərhələdə 5 rayon, ondan sonrakı mərhələdə 2 rayon geri qaytarılırsa, bununla razılaşmaq olar. Biz münaqişənin həllini istəyirik və dünyaya da göstərmək istəyirik ki, konstruktiv mövqe tuturuq".

Novruz Məmmədov həmçinin ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə səslənib. O, münaqişənin həllində ədalətli mövqe nümayiş etdirməyə çağırıb.

"Təəssüflər olsun ki, dünyadakı münaqişə ocaqlarının çoxalmasının səbəbi elə qərb ölkələrinin, xüsusən Avropanın ikili mövqeyindən doğur. Bu yanaşma həmin dövlətlərə də yaxşı heç nə vəd etmir".

## Azərbaycan-Cənubi Avropa qaz marşrutunu dəstəkləyiblər



"Reuters" agentliyinin verdiyi məlumata görə, Qərbi Balkan ölkələri Avropa İttifaqının enerji siyasəti prinsiplərinə riayət etməyin lehinə olduqlarını bildiriblər. İyulun 15-də Xorvatiyanın Dubrovnik şəhərində altı Qərbi Balkan ölkəsinin prezidentləri Almaniya kansleri Angela Merkel ilə görüşüblər. Görüşün yekununa əsasən tərtib edilən bəyanatda həmin ölkələrin prezidentləri yeni qaz kəmərləri çəkilişi zamanı Avropa İttifaqının enerji siyasətinin əsas müddəalarına əməl etməyi öhdəyə götürüblər.

Sənədə əsasən, yeni qaz kəmərləri çəkilişinin məqsədi təchizatın daha etibarlı olmasını təmin etməkdən ibarətdir. Bununla əlaqədar, Qərbi Balkan ölkələri Azərbaycan-Cənubi Avropa qaz marşrutuna xüsusi diqqət yönəldirlər.

## İraq ordusu Tikrit şəhərini terrorçulardan azad edib



İraq ordusu Tikrit şəhərini terrorçulardan azad edib. Aparılan hərbi əməliyyatlar nəticəsində şəhərin mərkəzindəki xəstəxana, polis akademiyasının binası, mədəniyyət mərkəzi geri alınıb. İraqın hərbi hava qüvvələri terrorçuların mövqelərini bombalamaqda davam edib.

Hazırda şəhər ətrafında döyüşlər gedir. İraq İslam Şam Dövləti qruplaşmasının 100-dən çox döyüşçüsü məhv edilib.

## ABŞ Rusiyaya qarşı sanksiyaları sərtləşdirib



Ukraynadakı vəziyyətlə əlaqədar ABŞ Rusiya məmurları və şirkətlərinə qarşı sanksiyaları sərtləşdirib. "gazeta.ru"nun verdiyi xəbərə görə, bu barədə ABŞ Maliyyə Nazirliyinin dərc etdiyi sənəddə bildirilir.

Qeyd edək ki, sanksiya siyahısına bir sıra şəxslərlə yanaşı, "Almaz-Antey" korporasiyası, "Kalaşnikov" konserni, "Bazalt", "İjmaş", "Uralvaqonzavod" şirkətləri, "Radioelektron texnologiyaları", "Sozvezdiye" konsernləri, Cihazqayırma Konstruktor Bürosu və Maşınqayırma Elm-istehsalat Birliyi daxil edilib. Siyahıya həmçinin neft-qaz sektoruna aid "Novatek", "Rosneft", "Vneşekonombank", Qazprombank kimi iri korporasiyalar da salınıb.

Avropa Birliyi liderləri də Brüsseldə keçirilən sammitdə Rusiyaya qarşı sanksiyaların genişləndirilməsini dəstəkləyib.

## Ukrayna Hava Qüvvələrinə məxsus "An-26" təyyarəsi vurulub




Luqansk səmasında vurulan və Ukrayna Hava Qüvvələrinə məxsus "An-26" hərbi nəqliyyat təyyarəsinin Rusiya ordusu tərəfindən vurulduğu açıqlanıb.

UNİAN-ın verdiyi xəbərə görə, bunu Ukrayna Təhlükəsizlik Xidmətinin rəhbəri Valentin Nalivayçenko bəyan edib.

V.Nalivayçenko bildirib ki, təyyarənin Rusiya tərəfindən vurulduğuna dair təkzibedilməz sübutlar var. O, apardıqları təhqiqatın nəticələrini ölkə prezidenti Petro Poroşenkoya təqdim edəcəklərini deyib: "Təhqiqat başa çatıb. Təkzibedilməz sübutlar var, bunlar əvvəlcə prezidentə məruzə ediləcək, daha sonra dərc olunacaq".

Qeyd edək ki, iyulun 14-də təyyarədə 7 ekipaj üzvü və yükü müşayiət edən bir nəfər olub. Ekipaj təyyarə vurulduqdan sonra paraşütlə yerə tullanıb. Onlardan ikisi separatçılara əsir düşüb, digər 6 nəfərin taleyi naməlumdur.

## Erməni maqnat məhkəməyə çıxarıldı



Moskvanın Basman məhkəməsi cinayətkar yolla əldə edilmiş pulların yuyulmasında şübhəli bilinən erməni diasporunun lideri sahibkar Levon Ayrapetyanın həbsinə sanksiya verib. Erməni milyarder Monakodan Moskvaya gələrkən "Domodedovo" aeroportunda saxlanılıb. Məhkəmə Dağlıq Qarabağda separatçı rejimin əsas sponsorlarından biri olan Ayrapetyan haqda iki aylıq həbs qəti imkan tədbiri seçib. İstintaqdakı mənbələrdən məlum olub ki, Ayrapetyanı hələlik iqtisadi cinayətlərdə ittiham edirlər. Bura mənimsəmə, cinayətkar yollarla qazanılmış pulların leqallaşdırılması maddələri daxildir. Bir neçə sifarişli qətlə görə ömürlük həbsə məhkum edilmiş senator İzmestyevin ifadəsinə əsasən, 2009-cu ildə Başqırdıstanın "Başneft" şirkətinin satışına dair sövdələşmədə məhz Ayrapetyan iştirak edib. O, məşhur avtoritet Sergey Finaginin cinayətkar qruplaşması ilə əməkdaşlıqda da ittiham olunur.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Hərbi qulluqçularımız ingilis dili sertifikatı aldılar



***İyulun 18-də Azərbaycan Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində intensiv təşkil olunan ingilis dili kurslarında təhsil alan 40 nəfər hərbi qulluqçunun buraxılış mərasimi keçirilib. Tədbir iştirakçılarını salamlayan Müdafiə Nazirliyi Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Ramiz Nəcəfov təhsilin əhəmiyyəti və perspektivliyindən danışıb və məzunları buraxılış günü münasibəti ilə təbrik edib.***

Tədbirdə iştirak edən Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Riçard Morninqstar da məzunları təbrik edərək onlara gələcək işlərində və təhsillərində uğurlar diləyib.

Sonda çıxış edən ABŞ Hərbi Hava Qüvvələrinin Laklənd bazasında yerləşən Müdafiə Dillər İnstitutunun müəllimi Eron Doyç məzunların təhsildə qazandıqları uğurlardan söz açıb və bildirib ki, belə kursların təşkil edilməsində əsas məqsəd məzunların ingilis dilində sərbəst anlaşmasıdır.

Qeyd edək ki, ölkəmizdə ingilis dili kursları 2004-cü ildən bir qrup, 2005-ci ildən isə dörd qrup həcmində fəaliyyətini davam etdirir. Kursu bitirən zabit və gizirlər ixtisaslarına uyğun olaraq ildə bir dəfə ABŞ-da təşkil olunan kurslarda da iştirak edirlər.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**18 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 56 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Noyemberyan rayonunun Voskepar və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara və Qızılhacılı kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Qaraxanbəyli, Horadiz, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Şıxlar, Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Silahlı Qüvvələrdə sənədli hərbi vətənpərvərlik filmləri həftəsi

***Lənkəran Zabitlər Evində Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Respublika Gənclər Mükafatı və Beynəlxalq Kino Festivalları laureatı Tahir Əliyevin rejissorluğu ilə çəkilmiş sənədli hərbi vətənpərvərlik filmləri həftəsinin açılışı oldu.***

Azərbaycan Müharibə Veteranları İctimai Birliyinin cənub bölgəsi üzrə səlahiyyətli nümayəndəsi, Qarabağ müharibəsi veteranı Əlisəfa Ağayev, Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani qonaqları salamlayaraq qeyd etdilər ki, bu gün Silahlı Qüvvələrdə şəxsi heyətin milli-mənəvi dəyərlər və hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, onlarda yüksək əxlaqi-mənəvi keyfiyyətlərin yüksəldilməsi məsələləri Müdafiə Nazirliyinin daim diqqət mərkəzindədir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin də dəfələrlə qeyd etdiyi kimi, milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz... Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik.



Böyük Vətən müharibəsində alman faşizmi üzərində tarixi Qələbənin 70 illik yubileyi ilə əlaqədar Silahlı Qüvvələrdə keçiriləcək tədbirlər planına əsasən sənədli filmlər həftəsinin şəxsi heyətin həyatında əhəmiyyətli bir hadisə olacağını vurğulayan polkovnik daha sonra nümayiş etdiriləcək filmlərin rejissoru Tahir Əliyevi təqdim etdi. Bildirdi ki, hazırda Mədəniyyət və Turizm Nazirliyinin "Salnamə" kinostudiyasında kinorejissor kimi fəaliyyət göstərən bir istedadlı rejissor 2005-ci ildə ilin ən yaxşı sənədli film rejissoru elan edilmişdir.

MDB-nin və dünyanın bir çox şəhərlərində keçirilən beynəlxalq kino festivallarının xüsusi diplom və mükafatlarını almış kinorejissor Tahir Əliyevin yaradıcılığının ana xəttini hərbi vətənpərvərlik mövzusu, xüsusilə də faşizm üzərində qələbədə Azərbaycan xalqının müstəsna xidmətlərinin tərənnümü təşkil edir. Məhz sənədli filmlər həftəsi ərzində hərbi hissələrin şəxsi heyətləri, eləcə də lənkəranlılar "Təxəllüsü "Mixaylo", "Unudulmuş partizan", "Səhra gülü", "9-cu korpus", "Qafqaz qartalının uçuşu", "Medo Hollandiyadadır", "Xəzərdən Dunaya" filmlərinə baxmaq imkanı qazanacaqlar.

Azərbaycan Müharibə Veteranları İctimai Birliyinin cənub bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Ə.Ağayev isə öz çıxışını ulu öndər Heydər Əliyevin kəlamları ilə başladı: "Atalarımızın, babalarımızın qəhrəmanlıq nümunələri bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olmalıdır", - dedi. O, son vaxtlar Silahlı Qüvvələrdə bu kimi tədbirlərin vaxtaşırı olaraq keçirildiyini yüksək qiymətləndirdi və Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürünü bildirdi. Qeyd etdi ki, belə tədbirlər şəxsi heyətin hərbi vətənpərvərlik ruhunda tərbiyəsində və gənc nəslin ata-babaların qəhrəmanlıq ənənələrinə sədaqət ruhunda maariflənməsində xüsusi əhəmiyyət kəsb edir.



"Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif olunmuş Böyük Vətən müharibəsi veteranı Ağadadaş Səmədov, Daxili Qoşunların zabiti polkovnik-leytenant İlqar Məmmədov, Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidməti Lənkəran şöbəsinin zabiti mayor Elnur Məmmədov, hərbi hissə komandirinin şəxsi heyət üzrə müavini mayor Hümmət Bəndiyev, Azərbaycan Yazıçılar Birliyinin üzvü Ağamir Cavad, yazıçı-publisist Hafiz Mirzə, Əfqanıstan müharibəsinin iki "Qırmızı Ulduz" ordenli veteranı Əflatun İsmayılov və başqaları da çıxış edərək sənədli filmlər həftəsinin gənclərin döyüş ruhunun yüksəlməsində rolunu yüksək qiymətləndirdilər.

Lənkəran Zabitlər Evinin rəisi polkovnik-leytenant Etibar Əliyev sənədli filmlər həftəsinin yüksək səviyyədə təşkil edilməsi üçün hər cür şərait yaradıldığını bildirdi, kinorejissora və filmlərin yaradıcı heyətlərinə uğurlar arzuladı.

Əsgər Xəyal Məmmədov və şəhər məktəblisi Jalə Bayramzadə sənədli filmlər həftəsinin açılışına həsr olunmuş ədəbi-kompozisya təqdim etdilər. Kinorejissor Tahir Əliyev tədbir iştirakçılarının nəzərinə çatdırdı ki, artıq o, Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Abdulla Qurbaninin ssenarisi əsasında Belarusun alman-faşist işğalçılarından azad edilməsində xüsusi xidmətləri olmuş azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəfiyev və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəxsi igidlik və şücaət nümunələri göstərmiş belaruslu Azərbaycanın Milli Qəhrəmanı mayor Anatoli Davidoviç haqqında "İki xalqın övladları" adlı sənədli film üzərində işləyir.

Sonda tədbir iştirakçıları "Təxəllüsü "Mixaylo" və "Səhra gülü" filmlərinə baxdılar.

Sənədli hərbi vətənpərvərlik filmləri həftəsi iyulun 23-dək davam edəcəkdir.

**"Azərbaycan Ordusu"**

*Horadiz şəhərindəki Muğam Mərkəzində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Füzuli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhid Səməndər Fazil oğlu Kərimova həsr olunan "Ölməzliyə qovuşanlar" adlı ədəbi-badii kompozisiya təqdim edilib.*

# Təki Vətən sağ olsun!



AzərTAc xəbər verir ki, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin "Ölməzliyə qovuşanlar" adlı poeması əsasında hazırlanan mərasimdə əvvəlcə plan-kompozisiya təqdim olunub.

Tədbirdə çıxış edən Müdafiə Nazirliyinin Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəis müavini, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani son vaxtlar Silahlı Qüvvələrdə aparılan uğurlu islahatlardan, ordu quruculuğu sahəsindəki yeniliklərdən danışıb, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, ictimaiyyətlə əlaqələrin genişləndirilməsi, şəhid və əsgər ailələrinə diqqət və qayğıdan bəhs edib.

Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirib ki, ölkəmizin hər yerində olduğu kimi, Füzuli rayonunda da gənclərin hərbi vətənpərvərlik tərbiyəsinə xüsusi fikir verilir. Torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə 1000-ə yaxın füzulili şəhid olub, 6 nəfər Milli Qəhrəman adına layiq görülüb. Füzulili gənclər Azərbaycan Silahlı Qüvvələrində öz əsgəri borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər. 2014-cü ilin birinci yarısında 1000-ə yaxın füzulili gənc müddətdən artıq hərbi xidmət etmək üçün yenidən ordu sıralarına qayıdıb.

Milli Məclis sədrinin müavini Bahar Muradova Azərbaycanda ordu quruculuğu sahəsində həyata keçirilən islahatlardan, Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi diqqət və qayğıdan bəhs edib.

Sonra Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə "3-cü dərəcəli xidmətdə fərqlənməyə görə medalı" şəhid Səməndər Kərimovun valideynlərinə təqdim olunub.

Şəhidin valideynləri diqqət və qayğıya görə minnətdarlıq edərək, "Təki Vətən sağ olsun!", - deyiblər.

Sonda Azərbaycan Silahlı Qüvvələrinin Mahnı və Rəqs ansamblının ifasında "Ölməzliyə qovuşanlar" adlı ədəbi-badii kompozisiya nümayiş etdirilib.

Mərasim əsgər marşının sədaları altında başa çatıb.

# Qan yaddaşımız

**Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:**

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*

***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*

***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*

***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*

***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*

***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*

***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*

***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*

***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# Xarici hərbi xronika

## Orbitə üç kosmik aparat çıxarılıb

Bu yaxınlarda Arxangelski vilayətindəki Plesets kosmodromundan orbitə "Rokot" raket daşıyıcısı ilə üç kosmik aparat çıxarılıb. "Rokot" raket daşıyıcısı silahlanmadan çıxarılmış qitələrarası ballistik RS-18 raketinin bazası əsasında hazırlanıb. Orbitə çıxarılan aparatlar sifarişçiyə təqdim edilib və onlar orbital uçuş prosesi zamanı idarətməni yerinə yetirəcək. Bu haqda Rusiya Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat verib. O da qeyd edilib ki, indiyə qədər orbitə cəmi 21 dəfə uçuş həyata keçirilib.

## Hərbi robot bazarının xərcləri artıb

Hazırda 80-ə yaxın ölkə texniki-robot sistemlərindən istifadə etməyə başlayıb. Bu ölkələrin bəziləri robotların yaradılması ərəfəsindədir və yaxud da onları öz hərbi proqramlarına daxil etmək üçün texnologiyalar əldə edirlər. Bu robotlar pilotsuz uçan aparatlar, pilotsuz yerüstü vasitələr və hətta pilotsuz sualtı aparatlar görkəmində olur. Onların belə görkəmdə olmalarına baxmayaraq, hamısı eyni məqsəd daşıyır - döyüş meydanında təhlükəli şəraitdə insanları əvəz etmək və onlara dayaq durmaq. Yeni tədqiqatların nəticələrinə görə, robotlardan orduda istifadə etmək üçün dünyanın hərbi-texniki ehtiyatlar bazarında ümumi xərclər 2016-cı ilə qədər 8 milyard dollara qədər artacaq. Bu haqda tədqiqatlar üzrə direktor Lari Fişer məlumat verib. Onun sözlərinə görə, bu robotlar döyüşün effektliyini və dəqiqliyini artıra bilər.

## Robotlar üçün miniatür silah

Amerika Birləşmiş Ştatlarının Hərbi Hava Qüvvələri döyüş robotları üçün miniatür silahların hazırlanmasına yeddi milyon dollar vəsait xərcləmək niyyətindədir. Bu layihənin həyata keçirilməsi ilə Amerikanın Boeinq korporasiyası məşğul olacaq. Artıq müəssisə bu işə başlamaq üçün ilkin mərhələdə 500 min dollar vəsait əldə edib. ABŞ HHQ-si miniatür silahlardan pilotsuz uçan aparatlarda istifadə etməyi planlaşdırıb. İlkin rəylərə görə, yeni silah az çəkili, kiçik ölçüdə olmalı və ucuz qiymətə başa gəlməlidir.

## Beşinci nəsildən olan J31 qırıcısı

Çinin "Şenyan" Aviasiya Şirkəti proqram çərçivəsində beşinci nəsildən olan J31 qırıcısının uçuş sınağının keçirilməsini davam etdirir. J31 qırıcısının uzunluğu 17 metr və qanadlarının dairəsi 11,5 metr təşkil edir. Qırıcının hazırlanmasında Rusiya istehsallı iki reaktiv RD-33 mühərrikindən istifadə edilib. J31 qırıcısı gəmiəleyhinə YJ-12 raketlərini daşımağa qadirdir, bu da onu radarlar üçün görünməz edir. Qırıcının əsas istifadə edilmə sahəsi göyərtə aviasiyası olacaq, burada həm quru, həm də dəniz əməliyyatlarını həyata keçirmək mümkün olacaq.

## Çin süni adada öz bazalarını yerləşdirə bilər

Uzun illərdir ki, Çin ölkəsi güclü hərbi dəniz qüvvələrini yaratmaq siyasətini həyata keçirir. Bu planın həyata keçirilməsində əsas vasitələrdən biri də yeni döyüş gəmilərinin hazırlanmasıdır. Bundan başqa bu ölkə iqtisadi və siyasi xarakterli tədbirləri də həyata keçirir. Xarici mətbuatın verdiyi məlumata görə, artıq çinli hərbçilər öz layihələri üzərində böyük işlər aparırlar. Bu da onların münaqişəli zona sayılan Cənubi-Çin dənizində Spratli adasında uzun müddət qalmalarına imkan verəcək. Çin bu regionlarda süni ada yaratmaq istəyir və burada bir çox tikililəri həyata keçirməyi planlaşdırıb. Bəzi mənbələrə görə, Spratlidə süni adanın yaradılması əsasən hərbi-siyasi məqsəd daşıyır. Adada dəniz və aviasiya bazalarının yerləşdirilməsi HDQ və HHQ-nin döyüş imkanlarını artırmağa zəmin yaradacaq. Əgər onların bu planları təsdiq olunsa, gələcəkdə yeni ada tamamilə Çinin hərbi qurumları tərəfindən əhatə olunacaq.

**Hazırladı:
Svetlana NƏSİBQIZI**

# Orduya qayğının daha bir nümunəsi

## "Göradil" Hərbi İstirahət Evində hərbi qulluqçulara göstərilən xidmət ürəkaçandır



***Orduya, hərbi qulluqçulara dövlət qayğısı yalnız xidmət yerlərində göstərilmir. Çətin və gərgin iş şəraitində çalışan hərbçilərin də istirahətinə fikir verilir. Bəs ordumuzda belə istirahət mərkəzləri varmı? Varsa, orada vəziyyət necədir, hərbi qulluqçular və onların ailə üzvləri üçün yaradılan şərait müasir tələblərə cavab verirmi?***



Bu yaxınlarda Müdafiə Nazirliyinin "Göradil" Hərbi İstirahət Evində ailəmlə birlikdə mən də iki həftə dincəlmək imkanı qazandım. Yuxarıdakı suallara da elə burada cavab tapmağa çalışdım. Düzü, ilk baxışdan adama xoş təsir bağışlayan bu istirahət mərkəzi haqqında çoxdan eşitsəm də, ətraflı təfərrüatım yox idi.

"Göradil" Hərbi İstirahət Evi Abşeron yarımadasında Xəzər dənizinin lap yaxınlığında yerləşir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 22 iyun 2006-cı il tarixdə bu istirahət evinin açılışında iştirak edib. Elə həmin vaxtdan mərkəz tam gücü ilə hərbi qulluqçulara xidmət göstərir. Bu, ölkə başçısının hərbi qulluqçulara göstərdiyi diqqət və qayğının daha bir nümunəsidir.

Ərazisi yaşıllıqlarla əhatə olunmuş bu müəssisə buraya yolu düşən hər kəsə xoş ovqat bəxş edir. Hərbi qulluqçuların və onların ailə üzvlərinin istirahətinin yüksək səviyyədə təmin olunması üçün burada çalışan hər bir işçi öz üzərində böyük məsuliyyət hiss edir. "Göradil" Hərbi İstirahət Evinin rəisi polkovnik-leytenant Ayətxan Hüseynovun tabeliyində olan kollektiv xidmətin yüksək təşkili üçün əlindən gələni əsirgəmir. Nəzarət-buraxılış məntəqəsindən başlanan təmizlik və abadlıq bütün sahələri əhatə edir. Yeni rəhbərlik qısa müddətdə ərazidə yaşıllıqları artırıb, bəzək gülləri və tinglər əkilib, bir sözlə, çoxlu abadlıq işləri görülüb.

İstirahət evinin rəisi söhbətimizdə bildirdi ki, onların başlıca məqsədi istirahətə gələn hərbi qulluqçuların və onların ailə üzvlərinin rahatlığını müasir səviyyədə təşkil etməkdir.

- Müdafiə naziri general-polkovnik Zakir Həsənov ordumuzun hər bir sahəsinə olduğu kimi, hərbçilərin istirahətinin təşkili üçün də diqqət və qayğısını əsirgəmir, - dedi zabit. - Ordu rəhbərliyinin qarşımıza qoyduğu əsas tələb istirahət evində yüksək səviyyəli xidməti təşkil etməkdir.

Burada çalışanların əksəriyyəti mülki işçilərdir. Amma buna baxmayaraq bu təşkilatda yüksək nizam-intizam və tələbkarlıq mövcuddur. Bunun üçün hər gün səhər saatlarında polkovnik-leytenant A.Hüseynov tabeliyində olanlarla toplantı keçirir və gün ərzində görüləcək işlərlə bağlı tapşırıqlar verir.

"Göradil" Hərbi İstirahət Evinin qəbul bölməsinin müdiri Elçin Surxayev isə bildirdi ki, istirahət evi ilboyu fasiləsiz fəaliyyət göstərir. "Hazırda yay mövsümü olduğu üçün istirahətə gələnlərin sayı çoxdur. İstirahətə gələnlər arasında cəbhə bölgəsində və müxtəlif qoşun növlərində xidmət edən hərbi qulluqçular üstünlük təşkil edir. Onlara istirahət müddəti 7 və ya 14 gün müəyyən edilir. Qiymətlər də münasibdir".

İdman, fiziki hazırlıq və mədəni-kütləvi tədbirlər bölməsi də burada ən mühüm bölmələrdən hesab olunur. Qarabağ müharibəsinin iştirakçısı Şahin Həsənovun rəhbərlik etdiyi bölmənin nəzdində olan açıq havada süni ot örtüyü olan mini futbol, kort, basketbol meydançaları, sauna, üzgüçülük kompleksi, əl oyunları üçün örtülü idman zalı, trenajor zalı, stolüstü tennis və bilyard zallarından ibarət idman şəhərciyi istirahətə gələnlərin ixtiyarındadır. Burada dincələnlər səhər və günorta saatlarında avtobusla dəniz çimərliyinə aparılır.

Hərbi istirahət evində daha çox diqqət çəkən sahələrdən biri də maddi-texniki təminat bölməsidir. Bu səbəbdən Şafaat Əlaslanovun üzərinə daha çox məsuliyyət düşür. Bütün növ təminatlara cavabdeh olduğundan o, vəzifə borcuna ciddi yanaşır. Ş.Əlaslanov söhbət zamanı bildirdi ki, tabeliyində olanların bacarığı və işgüzarlığı sayəsində maddi-texniki təminat işi yüksək səviyyədə qurulub. Öz işinə tələbkar münasibəti olan əməkdaşlardan Elmira Abdulvahabovanın, Şəlalə Əzimovanın, İsaq Kazımovun, Anar Məmmədovun, Elşən Xudiyevin və Namidə Quliyevanın adlarını qeyd etmək yerinə düşərdi.

Fürsətdən istifadə edib burada dincələn hərbi qulluqçuların istirahətlə bağlı fikirlərini öyrənmək istədim. Onlardan biri - tibb xidməti polkovnik-leytenantı Alı Mahmudov dedi ki, o ilk dəfədir ailəsi ilə birgə bu istirahət evindədir.

- Burada yaradılan şəraitdən və göstərilən xidmətdən çox razıyıq, - deyə Alı həkim bildirdi. - Hər gün dəniz çimərliyinə gedirik, sauna-üzgüçülük kompleksindən geniş istifadə edirik.

Bəli, hərbi qulluqçunun ailəsilə birgə "Göradil" Hərbi İstirahət Evində dincəlməsinə dəyər.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

# İdman

## FİFA reytinqində millimizin yeni rekordu



Braziliyada keçirilən dünya çempionatının ardından milli komandaların FİFA reytinqi açıqlanıb. Apasport.az saytının məlumatına görə, mundialın 64 qarşılaşması reytinq siyahısında ciddi dəyişikliklərə səbəb olub.

Zirvədə İspaniyanın hegemonluğu başa çatıb. Əvəzində 1724 xalla Almaniya 1-ci yerə qalxıb. Argentina, Hollandiya, Kolumbiya, Belçika milliləri də ötən reytinqlə müqayisədə irəliləyərək öncül yerləri tutublar.

Ötən ay 83-cü yerdə qərarlaşan komandamız bu dəfə 10 pillə irəliləyib. 410 xala malik Azərbaycan yığması 73-cü pillədə qərarlaşıb.

## Futzal üzrə Azərbaycan millisi reytinq cədvəlində 10-cu pillədədir



Futzal üzrə milli komandaların növbəti reytinq siyahısı açıqlanıb. Cədvəldə dünyanın 151 yığması yer alıb.

Hesabında 1391 xal olan Azərbaycan yığması siyahıdakı mövqeyini qoruyub. Millimiz ötən reytinq cədvəlində qərarlaşdığı 10-cu pillədədir.

Siyahıda ilk beşliyi Braziliya (1928 xal), İspaniya (1915 xal), İtaliya (1771 xal), Rusiya (1739 xal) və Argentina (1641 xal) tamamlayır.

## "Qarabağ" Çempionlar Liqasının təsnifat mərhələsində qələbə qazanıb



İyulun 15-də UEFA Çempionlar Liqasında ikinci təsnifat mərhələsinin ilk oyunları keçirilib. AzərTAc xəbər verir ki, Azərbaycanı qitənin ən nüfuzlu klub turnirində təmsil edən son ölkə çempionu Ağdamın "Qarabağ" futbol komandası ikinci təsnifat mərhələsində ilk qələbəsini qazanıb.

Maltada "Ta Qali Milli Stadionu"nda yerli "Valletta" komandası ilə qarşılaşan "Qarabağ" 17-ci dəqiqədə hesabı açıb. Topu rəqib komandanın qapısından 70 nömrəli oyunçu Çumbinyo keçirib. Oyun 0:1 hesabı ilə Qurban Qurbanovun yetirmələrinin xeyrinə başa çatıb.

## Yeniyetmələrin dünya çempionatında pəhləvanlarımızın uğuru



Slovakiyanın Snina şəhərində yeniyetmə güləşçilərin dünya çempionatı davam edir.

Ümumilikdə yunan-Roma güləşçilərimiz 3 gümüş və 2 bürünc medal qazanıblar. Komanda hesabında 49 xal toplayan Azərbaycan millisi dünya çempionatını ikinci sırada tamamlayıb. Eyni xalla Rusiya yığması birinci, 43 xalla İran yığması üçüncü olub.

## Boksçumuz "Golden Gloves" beynəlxalq turnirində gümüş medal qazanıb



"Qəbələ" İdman Klubunun boksçusu Məhəmmədəli Tahirov Serbiyada keçirilən "Golden Gloves" beynəlxalq turnirində uğurla çıxış etmişdir.

Klubdan AzərTAc-a bildirmişlər ki, super ağır çəkidə (91 kq-dan artıq) mübarizə aparan idmançımız yarımfinalda Ermənistan boksçusu Gnel Mutradyanla qarşılaşmış və rəqibinə heç bir şans verməyərək böyük üstünlüklə qalib gəlmişdir. Qızıl medal uğrunda döyüşdə M.Tahirovun rəqibi rusiyalı Viktor Orekov olmuşdur. Gərgin mübarizə Orekovun qələbəsi ilə yekunlaşmışdır.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

Polkovnik-leytenant Xudiyev Sərvər Əflan oğluna 2012-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məsul katib
mayor
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
leytenant
Ceyhun CƏFƏRLİ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki-üç dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 242
Nüsxə 4570